ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# AVROPANIN "DUZ QƏSRİ"





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Zalsburq Avropa incəsənət və mədəniyyətinin paytaxtlarından biridir. Şəhəri həm də Avstriyanın qeyri-rəsmi paytaxtı hesab edənlər var. Duz yataqları Zalsburq bölgəsinin xəzinəsi sayılır.

Zalsburq şəhəri tez-tez "Şimalın Roması" adlandırılır. Salzax çayı üzərində yerləşən şəhər Avropa incəsənət və mədəniyyətinin paytaxtlarından biridir. Zalsburq həm də Avstriyanın qeyri-rəsmi paytaxtı sayılır. Duz şaxtaları ilə məşhur olduğu üçün "Duz qəsri" də adlandırılır. Duz yataqları Zalsburq bölgəsinin xəzinəsi sayılır.

Şəhərin memarlığı italyan memarlığını xatırladır. Zalsburqun Köhnə şəhəri UNESCO-nun Dünya İrsi Siyahısındadır. Gözəl barok kilsələri, yaxşı qorunmuş orta əsr evləri və geniş meydanları hətta ən tələbkar turisti də ovsunlayır.

Paytaxt Vyanadan 4 saatlıq məsafədə yerləşən bu turistik şəhərə hava və dəniz yolu, saat kimi dəqiq işləyən qatarlarla və şəxsi avtomobillə rahat çatmaq olur. Almaniyadan və ya Macarıstandan yol boyu füsunkar məkanları, nağıl təsiri bağışlayan yerləri görmək istəyənlər adətən qatara üstünlük verirlər. Biz də səyahətimizdə bir neçə ay əvvəldən gediş-dönüş biletini aldığımız (35+40 avro) Budapeşt-Zalsburq qatarını seçdik.

### SİZİ ELƏ BİR ÖLKƏYƏ APARIRAM Kİ...

Bir neçə il bundan əvvəl Avstriyanın paytaxtı Vyanaya səfər edəndə bələdçi "Sizi elə bir ölkəyə aparıram ki, orada həftə sonları heç bir yer işləmir. Nə müəssisələr, nə də dükanlar. İnsanlar istirahət edirlər..." sözlərini Zalsburqa çatanda istər-istəməz xatırladım.

Zalsburq görkəmli bəstəkar Volfanq Motsartın doğulduğu yerdir. Bu balaca şəhərdə hər şey bu bəstəkarın adı ilə bağlıdır. Zalsburq mədəni tədbirlər, festivallar şəhəridir. Şəhərin bütün küçələrində klassik musiqi melodiyaları eşidilir. Böyük ticarət mərkəzlərində, kafe və restoranlarda, dar küçələrdə musiqi səsi insanları müşayiət edir. Bunların fonunda Zalsburq təbiət mənzərələrini, ecazkar qədim memarlığı, incəsənət və mədəniyyəti, həmçinin ənənə və müasirliyi harmonik şəkildə birləşdirən unikal şəhərdir.

### ORTA ƏSRLƏRİN ƏSL RUHU

Zalsburq ilin bütün fəsillərində turistlərin can atdığı şəhərdir. Qışda burada inanılmaz Milad abı-havası olur. Həmin vaxt şəhər rəngbərəng işıqlar və bəzəklərlə parlayır, isti şərabın, ədviyyatların və kekslərin ətirləri Köhnə şəhərin küçələrindən yayılır. Milad tətillərində gələnlər Katedral meydanında və Residenzplatzda Milad bazarını mütləq ziyarət edirlər. "Zalsburqda "Milad tətilləri" sehrli xatirələrdir. Ona görə də bu, ən yüksək turizm mövsümüdür", - deyə bayramı bu şəhərdə qarşılayan turistlər sonradan statuslarında qeyd edirlər.

Yazda da şəhərin küçələri turistlərlə doludur. İnsanlar Getreidegasse-dəki Motsartın ev muzeyi, unudulmaz toy etmək istəyənlərin əsl arzusu olan Mirabell Sarayı və 17-ci əsrin sonunda əsası qoyulan barok parkı, Hellbrun sarayı, Köhnə şəhəri, Zalsburq qalasını, ətraf bölgələri gəzməkdən böyük zövq alırlar. Zalsburqun gəzinti marşrutuna qədim "Hohensalzburg qalası" da daxil edilir. Qala şəhərin simvollarından biridir. Onun tarixi 11-ci əsrdən, taxta istehkamın yarandığı vaxtdan başlayır. Qala Mərkəzi Avropada ən yaxşı qorunan tarixi abidələrdən biri hesab olunur və turistlər hələ də burada orta əsrlərin əsl ruhunu hiss edirlər. Qalaya giriş 11 avrodur.

Zalsburq heyrətamiz kilsələr şəhəridir. Qüllələri göyə qalxan Zalsburq "Katedrali" xüsusilə məşhurdur.

## TURİSTLƏRLƏ MÜNASİBƏTDƏ TOLERANT OLSALAR DA...



Zalsburqun gözqamaşdıran gözəllikləri fonunda küçələrində evsiz-eşiksiz insanları da, dilənçilik edən qaraçıları da, hansısa yolla gəlib bu şəhərdə özünə yer edən miqrantları da aydın görünür.

Yerli sakinlər turistlərə tolerant olsalar da, üzlərinə gülümsəsələr də, yol və ya ünvan soruşanda nəzakətlə cavab versələr də, başqa millətlərə o qədər dözümlü deyillər. "Əmək haqqı yüksək olsa da bizi aşağılayırlar", - deyə söhbətləşdiyim türk qadın şikayətləndi: "Burada vətəndaşlığımız var. Özüm də, yoldaşım da işləyirik. Qızım universitetdə oxuyur. Amma səhərdən axşama qədər işləyirik. Bizə özləri kimi yanaşmırlar".

Avstriyanın bütün şəhərləri kimi Zalsburq da Ukraynadan gələn qaçqınları bir il müddətinə yaşayış yeri ilə təmin edib. Ukraynalı qadınla evli olan azərbaycanlı müharibəyə görə bu şəhərə sığındıqlarını dedi: "Şəhər kənarı hoteldə yerləşmişik. Gündə 3 dəfə yeməklə təmin olunuruq. Amma Kiyevdəki evimiz üçün darıxırıq. Burada təminatımız var, ancaq bu nə Ukraynadakı işimizi, nə də həyatımızı əvəz edir. Xüsusən yaşlı insanlar üçün mühacir kimi yaşamaq çox çətindir".

### HALLŞTATA DOĞRU...

Adətən turistlər deyirlər ki, Zalsburqu gəzməyə 2-3 gün bəs edir. Amma tələbkar və zövqlü turistlər vaxtdan vaxt oğurlayıb təəssüratlarına Alp dağlarının ətəklərində yerləşən kəndlərin gözəlliklərini də qatırlar. Bizi qarşıda dünyanın ən gözəl kəndlərindən birinin – Hallştatın unudulmaz təəssüratları gözləyir...




## ZALSBURQDA QASTRONOMİK TURİZM ÜÇÜN HƏR ŞEY VAR

Zalsburqda qastronomik turizm üçün hər şey var. Fərqli xalqların mətbəxləri, o cümlədən türk mətbəxi heç kimi ac qalmağa qoymur. Orijinal pivə meyxanaları, rahat kafelər, bahalı restoranlar, şən barlar turistləri Zalsburq mətbəxindən həzz almağa və gözəl vaxt keçirməyə dəvət edir. Hər bir turist ətri baş gicəlləndirən kofe ilə almalı piroqu – ştrugeli mütləq dadır (9 avro).

Zalsburqda həftə sonları sakitlik olur. Bəzi kafe və restoranlar istisna olmaqla, heç yer işləmir. Hətta apteklər, həyat əhəmiyyətli digər müəssisələr də bağlı olur. İnsanlar istirahət edir, yaxın şəhərlərə ailəvi səyahətə çıxırlar.

Yerli sakinlər daha çox yaşlı insanlardır. Küçələrdə mehribanlıqla əl-ələ tutan qoca cütlüklər arxayınlıqla istirahət edirlər. Tənha insanlar çoxdur. Parklarda, çay kənarında it gəzdirən gənclərə və yaşlı insanlara daha çox rast gəlinir. Səbəbini belə izah edirlər: "Yeni evlənənlər uşaq istəmirlər. Heç kəs ömrünü uşağa həsr etmək fikrində deyil. Ona görə yaşlı nəsil daha çoxdur. Onlar da it və pişik saxlamağı xoşlayırlar. Heyvanları qeydiyyatdan keçirir və onlara təzminatlar alırlar".